Həyat

ÖMÜR

Bircə yol verilir ömür insana,
Tapılmış pul kimi baxma sən ona.
Ya çatdır kişitək bu ömrü sona,
Ya dalda yer ara, ayaqda yaşa!

Milyon insanların sən də birisən,
Nolar bir məqsədlə yansan, ərisən?!
Ya bir kölgə kimi süpür yeri sən,
Ya da al, dildə gəz, dodaqda yaşa!

Dalğalı dənizə bənzəyir həyat,
Köpürür bir saat, yatır bir saat.
Ya üz qəvvas kimi, dərində qol at,
Ya dayazda dolan, qıraqda yaşa!

Ömrünü bir cürə keçirir hərə,
Yüzü də yaşayır bəzi boş yerə.
Sən ya qartal kimi ucal göylərə,
Ya sürün ilantək, torpaqda yaşa!

Sən ömür adlanan bir yol üstəsən,
Bu yolda insana ağ gün istə sən.
Təkcə öz ömrünü xoşbəxt istəsən,
Bəşər övladından uzaqda yaşa!

1957

BALIQLAR

Doğrudan balıqların
Qəribə şakəri var:
Dünya alt-üst olsa da
Dinmir,
Susur balıqlar.
Tora düşəndə belə
Balıqlar yenə dinmir.
Bəlkə balıqlar əsla
Kədərlənmir, sevinmir?!
Biri bu qızılbalıq,
Danışsa, dinsə əgər
Qızıltək sözlər deyər.
Şahmayılar tavada
Qovrulanda cızhacız.
Baxır sükutla yalnız,
Gör necə susur sazan,
Gön qalın, gözlər iri;
Danışsa yağdıracaq
Qaba-qaba sözləri.
Sıf da susur, danışmır,
Üst-başı tikan-tikan.
Danışsa,
Tikanlı söz
Töküləcək ağzından.
Hərçənd ki, lüm-lüm udur
Balaca balıqları, –
Zorgödən naqqa belə
Danışsa, gəlsə dilə
Sözüylə, nitqi ilə
Kar edər qulaqları.
Danışmır çapaq, xəşəm,
Danışmır susur nərə.
Bu balıqlar görəsən
Danışmır nəyə görə?
Sel gəlir dalğalarla,

Dalğa gəlir qatarla,
Çay coşur ləpə-ləpə, –
Balıqlar iri-iri,
Balıqlar körpə-körpə
Üzür belədən-belə.
Onlar susurlar elə...
Onlar susurlar elə...

1970

NƏNƏ VƏ NƏVƏ

Nənə son nəfəsdədir.
Nəvə bunu qanmayır,
O bilmir həyat nədir,
Ölümə inanmayır.

Gülür, atılır göyə,
Dəcəllikdən doymayır.
Hamı qəmlidir – niyə? –
Uşaq bunu duymayır.

Xəstənin yorğanında
Gəzir əli yenə də:
– Nənə, nənə, yanında
Tez ol, yer ver mənə də.

Dönüb, neçə sərt baxış
Uşağa - çəkil – dedi.
– Nənə, bir nağıl danış.
Danış Məlikməmmədi.

Dil boğaza qoymayır
Uşaq danışır yenə.
Təzə həyat duymayır
Ki, artıq yoxdur nənə...

1959

QIFIL

Qıfıllı qapını ayıb sayan biz,
Qıfılsız qapılar arzulayan biz,
Qıfıllar vururuq hər şeyə indi.
Qıfılsız bir qapı tapmaq çətindi.
Qıfıl evimizə, eyvanımıza,
Qıfıl bağımıza, bostanımıza,
Qıfıl maşınlara – aparmasınlar,
Qıfıl vitrinlərə – qoparmasınlar.
Az qala cibə də qıfıl qoyaq biz,
Paltarı bədənə qıfıllayaq biz!
İnsana qalmayıb etibarımız,
Əgər varsa bizim bir az varımız,
Əgər gümanımız gəlirsə pula
Onu tapşırırıq dəmir qıfıla.
Dost səndən üz tutub soruşuram mən:
Bizim istəyimiz buydumu görən?
Qıfıl vurmaqdansa suya, çörəyə
Gəl, vuraq qıfılı əyri ürəyə!
Gəl, əyri gözlərə qıfıl qoyaq biz,
Gəl, əyri əlləri qıfıllayaq biz!

1968

SƏDAQƏT

İtin intəhasız sədaqətindən
Danışdı mənə,
İtin intəhasız məhəbbətindən
Danışdı yenə.
Sonra eşitdim ki, itin boynuna
Vurub o, zəncir.
Mən heyrət elədim doğrusu ona –
Bu zəncir nədir?!
Bir gün belə xəbər eşitdim yenə:

Qırılan kimi,
Köpək sıçrayıbdır öz sahibinə
Bir ilan kimi.
Onu parçalayıb bir an içində
Zəncirli köpək,
Sahibi uzanıb al qan içində
Çənə döyərək.
İt belə göstərib məhəbbətini
Ona ürəkdən...
İtin zəncirdəki sədaqətini
İstəmirəm mən.

1968

HƏYAT

Kiminə laləli seyrəngah olmuş,
Kiminə quyudur, tələdir həyat.
İnsanı üyüdür dəyirman kimi,
Sonra da ələkdən ələdir həyat.

Yolları gah nurlu, gah da dumandır,
Gah bəla gətirən, gah qəm alandır.
Kiminə dalğalı bir okeandır,
Kiminə damcıdır, gilədir həyat.

Kiminə şeş qoşa, kiminə dübir,
Kimini şah edir, kimini vəzir,
Kiminin gözündə kefdir, nəşədir,
Kiminə ağır bir şələdir həyat.

Gah qurur, yaradır, gah da sökdürür,
Gözü gah güldürür, gah yaş tökdürür.
Quzuya şir kimi nərə çəkdirir,
Şiri quzu kimi mələdir həyat.

Qəmə sevinc qatır, sevincə kədər,
Verdiyi nəşə də əzabdan betər.
Kürçaylı, bu giley, şikayət yetər,
Əzəldən belədir, belədir həyat!

1970

ALA BUZOV

Ala buzov,
Ala buzov,
Sən yadıma düşdün yenə.
Uşaqlığım göz önündən
Gəlib keçdi səhnə-səhnə.
Yadımdadır,
Onda sənin
Qızıl rəngli anan vardı.
Sənin üçün yelinində
Süd dənizi saxlayırdı.
Fəqət anan otlu-sulu
Örüşlərdən qayıdanda,
Mənim anam tamam sağıb
Onun qızıl yelinini
Boşaldardı bircə anda.
Mənim anam
Şirin-şirin eydirməylə
Ucaldanda öz səsini,
Sənin anan
Yelinində saxlamazdı
Südün bircə qətrəsini.
O sağardı
Dolu yelin
Çevrilincə boş sələyə.
Bir tərəfdə sən çatılı
Ürəyini yeyə-yeyə
Körpə buzov gözlərinlə

Seyr edirdin daim bunu –
Sərniclərdə köpüklənən
Öz payını, öz ruzunu.
Sənin körpə gözlərində
Giley-güzar vardı yaman.
Mən də sənin qismətini
Yeyə-yeyə keçdi zaman.
Tez boy atdım, tez böyüdüm
Sənsə qaldın süddən yanıq.
Bizə nə var, –
Biz güclüyük,
Biz insanıq!
Heç bilmirəm bu gün nəçün
Sən yadıma düşdün yenə.
Ala buzov,
Yandım sənin
Süddən yanıq taleyinə.
Qəribədir,
Kim itirsə
Ruzusunu, qismətini,
Kim itirsə öz payını,
Tikəsini, sərvətini,
Ala buzov,
Əvvəl-əvvəl
Sən gəlirsən göz önünə.
Bir də sərnic –
Süd dənizi –
Köpüklənə-köpüklənə...

1969

GÖZƏLLİK OVUNDA

Ov qadağan edilir yazın əvvəllərindən,
Elə ova çıxmağı bu vaxt istəyirəm mən.
İstəyirəm qayada əlikləri qovlayam,
Bir ahunun qapqara gözlərini ovlayam.

İstəyirəm əlimlə ovlansın hər gözəllik,
Gözlərimin toruna düşsün xınalı kəklik.
Turacın uçmasını ovlamaq istəyirəm,
Ceyranın qaçmasını ovlamaq istəyirəm.
Durnanın süzməsini,
Ördəyin üzməsini,
Torağayın səsini,
Bülbülün nəğməsini,
Qırqovul qanadının qanovuzu zərini,
Göyərçinin fəzalar fəth edən şəhpərini
Ovlamaq istəyirəm mən tüfəngsiz, seçməsiz.
Bircə ov da yanımdan qoy xəlvəti keçməsin.
Ov etmək istəyirəm bahar günü, yaz çağı.
Mənə icazə verər ovçular ittifaqı.

1976

LƏYAQƏT

Mən o adamları yada salıram,
Lap bugünkü kimi anıram yenə.
Anıram,
Doğrusu, heyran qalıram
İnsanın insanlıq ləyaqətinə.

Faşizm əsirdi qara yel kimi,
Başından aşmışdı ellərin dərdi.
Qatillər rəhmsiz soyuq əl kimi
Ərzi bir heçliyə ata bilərdi.

Hamı gözlə görüb, əllə tuturdu
Əzabı, acığı, dərdi, çətini.
Lakin qəhərini hamı udurdu,
Hamı gözləyirdi ləyaqətini.

Aclar dayanırdı məğrur, tox kimi,
Dərdlilər dərdsiztəkgülümsəyirdi.

Gəlinlər sinədə bir dağ yox kimi
Könülsüz-könülsüz əlvan geyirdi.

Atalar gizlində silib gözünü,
Aşkarda zarafat edirdi bəzən.
Məni sarsıdırdı insan dözümü,
Ərşə çəkilmişdi xudbin, xudpəsənd.

Nə bir ayaq çəkən, nə rüşvət alan,
Hamı tikəsini bölürdü yarı.
Nə rəyasət eşqi, nə riya, yalan
Əsir etməyirdi o insanları.

Adamlar bir yeyib, bir udurdular
Bütün əzabları, ağrı-acını.
Adamlar qəribə unudurdular
Həyatın hər cürə ehtiyacını.

Birisi götürüb haram bir tikə
Özünə – "haqlıyam bunda" – demirdi.
Kimsə öz adına vurmurdu ləkə,
Acından ölsə də haram yemirdi.

Faşistlər dursa da astanamızda,
Görsək də həyatın çox zillətini,
Qoca da, qarı da, oğlan da, qız da
Daim qoruyurdu ləyaqətini.

... Mən o adamları yada salıram,
Lap bugünkü kimi anıram yenə.
Anıram,
Doğrusu, heyran qalıram
İnsanın insanlıq ləyaqətinə.

1968

QARTAL ƏFSANƏSİ

"Kəmfürsət zərbələr, qartal, yamandı,
Qaya uçurandı, palıd yıxandı.
Sən isə... Bir qartal gücü var səndə,
Neynərsən belə bir zərbə dəyəndə?"

"Dost, qoca dünyada zirvə sözü var,
Ora nə ox çatar, nə güllə çatar.
Zirvələr önündə gücsüzdür düşmən,
Zirvə bir qaladır, zirvədəyəm mən".

"Qartal, köksünə bax, al qanın axdı,
Bəs səni zirvələr qoruyacaqdı?"

"Dost, oxu atanda kələyə bax,
Oxun ucundakı lələyə bir bax,
Qartal lələyidir – mənimdir, mənim.
Deməli, sirrimi bilib düşmənim.
O lələk çatdırıb zirvəyə oxu,
Qoy bu yayınmasın sənin gözündən.
Mənə ox atmışdı dünyada çoxu,
Zərbənin ağırı dəydi özümdən..."

1975

GÖZLƏR VƏ SÖZLƏR

Sən baxa bilmirsən mənim üzümə,
Sən baxa bilmirsən mənim gözümə.
Sənin gözlərinə baxan zaman mən
Gözünü gözümdən çəkirsən fövrən,
Fövrən baxışların çevrilir yana,
Elə bil varlığın düşür tufana.
Gözlərin gözümə davam gətirmir,
Bir mənə, bir sənə bəllidir bu sirr.
Bir vaxt təmiz idin quzey qarıtək,
Gözlərin səmanın ulduzlarıtək

Parlaqdı, aydındı, safdı, gülərdi.
O gözlər nurilə zülmət dələrdi.
O vaxt açıqüzlə deyib-gülürdün,
Günəşin özünə baxa bilirdin.
İndisə...
Dəyişdin, döndün büsbütün.
Gözəl dünəninə kölgəsən bu gün.
Deyirlər ürəyin mənasıdır söz,
Deyirlər ürəyin aynasıdır göz,
Gözünə baxıram, gözlər o deyil,
Sözünə baxıram, sözlər o deyil.
Gözünü gözümdən fövrən çəkirsən,
Gözünü uşaqtək yerə dikirsən.
Hayıf bir zamankı gözlərə, ay dost!
Hayıf bir zamankı sözlərə, ay dost!

1963

DOST HƏSRƏTİ

Sən inciyib getdin, ay dost,
Həftələrim aya dönüb.
Sənsiz soyuq keçən günlər
Buz bağlayan çaya dönüb.
Dost həsrəti nə ağırmış,
Dostun dağı yaman dağmış.
Düşünməzdim könlüm səni
Bu həsrətlə anacaqmış.
Alıb kitab oxuyuram –
Tez qarışır ağla qara,
Bənzəyirəm gözlüyünü
İtirmiş bir ixtiyara.
İki söz də yazammıram,
Küsdürmüşəm sanki təbi.
Elə bil ki, quruyubdur
Qələmimin mürəkkəbi.
Səsin yenə qulağımda

Cingildəyir nida kimi.
Gülüşlərin eşidilir
Hərdən əks-səda kimi.
Sənsizlikdən günəşin də
Azalıbdır sanki nuru.
Otağımda yerin boşdur,
Ürəyimdə yerin durur.
Həyətim də, eyvanım da
Gəlişinə müntəzirdir.
Açıq süfrəm, dadım – tamım
Gülüşünə müntəzirdir.
Ürəkaçan söhbətinə,
Sualına müntəzirəm,
Bir baxımlıq, bir görümlük
Vüsalına müntəzirəm.
Gözlərində günəş gəzən
Günəbaxan həsrəti var.
Gözlərimdə dost itirmiş
Bir insanın möhnəti var.
Ürəyimdə ümidsizlik,
Umid, güman savaşı var.
Dodağımda həsrətinlə,
Başqalaşıb bayatılar:

Bulud keçdi, çən gəldi,
Kətan köynək tən gəldi.
Qapıya kölgə düşdü,
Elə bildim sən gəldin.

Gəl ümidin qanadında,
İntizarın belini qır.
Gəl bir ildə iki dəfə
Çiçək açsın çəmən-çayır.
Gəl bir ildə iki dəfə
Sənə çiçək daşıyım mən.
İki bahar yaşayım mən,
İki ömür yaşayım mən.

1974

ZİRVƏDƏ

Şair alpinistdir.
Ömrü uzunu
Qalxır zirvələrin zirvəsinə o.
Neçə həqiqəti, neçə arzunu
Tapır, nəqş eləyir nəğməsinə o.

Şair alpinistdir.
Aya, günəşə
Ulduza, buluda doğru can atır.
Əlçatmaz zirvəyə qalxır həmişə,
Bu yolda ayaq yox, ürək qanadır.

Şair alpinistdir.
Bircə fərqi var:
Alpinist qalxdığı zirvədən dönür.
Şairsə zirvədə tutaraq qərar,
Orda günəş kimi parlayır, sönür.

1965

UŞAQLIQ

Uşaqlıqda elə hamı şair olur,
Hər nə görsə şerə dönür ürəyində.
Bir qırılan budaq üçün gözü dolur,
Ağrısını duyur əsən küləyin də.

Göz dikərək qaranlığa heyrət ilə,
Deyir: günü kimlər belə tora salır?
O söz qoşur al günəşə həsrət ilə.
Uşaqlıqda elə hamı şair olur.

Uşaqlıqda elə hamı rəssam olur,
Fırçasında qövsi-qüzeh boyaları.
Bir kəpənək qanadından ilham alır,
O, şiş çəkir yastı-yastı qayaları.

Böyükləri güldürsə də təsəvvürü,
Narınc rəngi vurur yaşıl yarpaqlara.
Boz səmanı, göy Xəzəri, mavi Kürü
Gah qırmızı rəngdə çəkir, gah da qara.

Uşaqlıqda elə hamı bəstəkardır
Nəğmə edir küləklərin əsməsini.
Nəğməsində bir ləkəsiz həyat vardır,
Özü qoşur sözlərini, bəstəsini.

Cırcırama oxuyanda təkrarlayır,
Quşlar onun dodağında ötür bəzən.
O, dünyanı nəhayətsiz səhnə sayır,
Nəğməsini deyir qəmli, deyir şən-şən.

Uşaqlığın öz təbi var, öz ilhamı,
Fırça tutur, şeir qoşur, nəğmə deyir.
Uşaqlıqda...
Uşaqlıqda elə hamı,
Ya Vurğundur, ya Mikayıl, ya Üzeyir.

1971

SÜNBÜLLƏR

Neçə il əvvəldə olduğu kimi
Getdim kəndçilərlə mən də biçinə.
Nəhəng məcməyidir elə bil zəmi,
Zəfəran dağılıb sanki içinə.

Dən dolu sünbüllər başını əyib,
Bir günah işləmiş adamlar kimi.
Boşlarsa şax durub, özünü çəkib,
Bu el sərvətində payı var kimi.

Baxıram, sünbüllər çeşid-çeşiddir,
Qurban yerə düşən dənəsinə də!
Sanıram hər biri canlı igiddir.
Bir nəğmə yaraşır hərəsinə də.

Qışda bürüncəyi bəyaz qar olar,
Bahar yağışında çimər sünbüllər.
Yayda bir mehriban uşağa bənzər,
Günəşin nurunu əmər sünbüllər.

Telləri saralıb çətirlənəndə,
Vətən torpağıyla ətirlənəndə,
Elin həyətində təndirlənəndə
Həyat müjdəsinə dönər sünbüllər.

Bitər yamacda da, bitər yalda da,
Nə dönüklük bilər, nə də aldadar.
Halal süfrələrdə şəkər, bal dadar,
Haram süfrələrdə zəhər sünbüllər.

Düşür xatirimə sınaq illəri,
Qoymadı çətində bizim elləri.
Xalqımın nə dərdi – geniş çölləri
Örtsə başdan-başa əgər sünbüllər!

1977

FAYTONLAR

Avto-karvan içindən
Faytonlar keçir hərdən.
Nal səsləri ucalır
Asfaltlı küçələrdən.
Maşınlar süzüb keçir –
Yaşıl, mavi, ağ, sarı.
Atlar süzür arxadan
Bir kədərlə onları,
Gənclər baxır faytona
Marsdan gələn meyvətək,
Yaşlılar gülümsəyir
Köksünü ötürərək.

İşıqforda işıqlar
Yenə növbəylə yanır.
Atlar yaşılda keçir,
Qırmızıda dayanır.
Elə bil ki, at ağlı
Hər bir şeydən halıdır,
Bilirlər: qırmızısa –
Onlar dayanmalıdır!
Faytonçu qırmancını
Havada yelləyir, bax,
Əynində göy arxalıq,
Başında da çal papaq.
Fayton, keçən zamanın
Sonuncu yadigarı,
İndi əyləncə üçün
Gəzdirir adamları.
Sərnişinlər əylənir –
Atmacalar, zarafat...
Məhəl qoymur onlara
Nə faytonçu, nə də at.
Əzəli qaydasıyla
At yortur, fayton gedir,
Cilovu bərk tutsa da,
Faytonçu fikirdədir.
Sanki asfaltdan qopan
Nal səsini sayır o,
Yoxsa fayton şöhrətli
Əsri xatırlayır o?!

1976

***

Ocaqda şam ağacı
Çırtaçırt yanır, yanır.
Bayırda yamyaşıl şam
Qar altından boylanır.

Düşünür bahar gələr,
Əriyib tökülər qar.
Zümrüd rəngli iynələr
Qar altından boylanar.

Lakin o heç düşünmür
Bu qarlı qış axşamı
Ocaqda çırtaçırtla
Alışıb yanan şamı...

1959

***

Bilmirəm işin nə, sənətin nədir,
Bilmirəm peşəni, bilmirəm; ancaq
Dostum, əməlilə üzüağ olmaq
Bilirəm, insanın öz əlindədir.

Bilirəm dağ üstə qaldırsan da dağ,
Səni sevən də var, sevməyən də var.
Lakin sən işinlə yüksəklərə qalx,
Həqiqət önündə bədxah utanar.

Sən elə yüksəl ki, söyləsin hamı:
"O valeh edərdi hər bir adamı,
Onda yüksəlməyə qüdrət var idi!"
Səni sevən də var, sevməyən də var,
Səndən söz düşəndə qoy desin onlar:
"Amma zalım oğlu sənətkar idi".

1961

TƏPƏLƏR

Mənim təpələrə yazığım gəlir,
Donqara dönüblər yerin belində,
Dağlar ulduzlara qədər yüksəlir,
Təpələr qalıbdır təpəliyində.

Dağlar meydan açır od şimşəklərə,
Günəş ilk nurunu dağa səpələr.
Təpələr bənzəyir göbələklərə,
Boyundan uzağı görmür təpələr.

Qəlbində ucalmaq həsrəti olan
Təpənin dərdini çox yaxşı bilir.
İçində qovrulmaq yamandır, yaman!
Mənim təpələrə yazığım gəlir...

1977

DƏRİNLİK

Yadımdadır həyətimiz, o daş hovuz,
Yay gələndə
Könlümüzə sirdaş hovuz,
Saysız uşaq oyunundan yorulardıq,
Od ələyən gün altında qovrulardıq.
Deyərdik ki,
İndi bir az sərinləyək.
Ördək kimi
Baş vurardıq dərinliyə.
Gözümüzdə ən sərin su –
Bu hovuzdu,
Gözümüzdə ən dərin su –
Bu hovuzdu.
Biz böyüdük...
Dar göründü hovuz bizə,
Burulğanlı Kürü keçdik üzə-üzə.
Çaylar gördük
Volqa kimi, Araz kimi,
Göy Xəzərdə əl-qol atdıq qəvvas kimi.
Okeanlar keçib getdik dərin-dərin
İtdi gözdən izi-tozu sahillərin.
Hara üzsək

Oldu bizə sirdaş hovuz,
Göy səmanı əks eləyən
o daş hovuz.
O hovuzda açılmışdı əl-qolumuz,
O hovuzdan başlamışdı su yolumuz.
Təlatümlü ilk dünyamız o hovuzdu.
Dərinliyin ilk sirrini bizə açan
Dördkünc hovuz –
dərin dəniz,
çay,
okean.

1974

***

Bir qağayı uçub getdi
Qanadları ağ,
Bir qız cumdu göy sulara,
Əl-qol ataraq.
Ağ qağayı yelkən açıb
Süzür havada,
Qız gah batır, gah da çıxır
Mavi dəryada,
Dalğalar sərt, sular dərin,
Sahil aralı,
Qəvvas qızın, qağayının
Nədir xəyalı?
Dalğalarla çarpışmanın
Nə mənası var?
Bəlkə sular səhrasında
Yarışır onlar?
Artıq onlar gözdən itib
Yox oldu birdən,
Hansı qalib gələcəkdir?
Deyəmmərəm mən.

Livadiya, 1958

DOĞUM EVİNDƏ

Keçirəm yanından doğumxananın,
Alır qulaqlarım körpə səsini.
Dünən bir gəlinin – bu gün ananın
Görürəm utancaq gül çöhrəsini.

Görürəm bir ata əlində çiçək
Hasardan boylanıb baxır içəri.
Günəşi axtaran günəbaxantək
Bir körpə, bir ana gəzir gözləri.

Ana gülümsəyir,
Körpə ağlayır,
Gözündən bir gilə yaş çıxmır, lakin
İnsanı əbədi zülmətdən ayır
Nura at –
sevincdən ağlayar yəqin!

Kənarda bir cavan şəfqət bacısı
Düzür körpələri pinqvin sayaq.
Hələ analığın ağrı-acısı,
Nəşəsi o qızdan uzaqdır, uzaq.

Görürəm özünü qız unudubdur,
Əlində təzəcə dinən bir həyat.
Elə bil əlində ərzi tutubdur,
Salsa
günəş sönər sanki o saat.

Hər gün yüz taleyə dəyir o əllər,
Talelər!
Ağı da, qarası da var.
Körpələr bir cildsiz kitaba bənzər,
Hələlik açılıb oxunmayıblar.

Hələlik görünmür kirpiksiz gözlər,
Hələlik seçilmir göz üstə qaş da.
Hələlik bilinmir o totuq üzlər
Bahar da görəcək, xəzan da, qış da.

Hələlik divarı doğumxananın
Əks edir onların o xoş səsini
...Dünən bir gəlinin, bu gün ananın
Görürəm utancaq, gül çöhrəsini.

1975

QİTƏLƏR

Şeh yarpaqda yaxşıdır,
Paltarına qonmaya.
Qar yaylaqda yaxşıdır,
Aranda çay donmaya.

Hər insan öz elində,
Obasında yaxşıdır.
Qələm ustad əlində,
Qılınc qında yaxşıdır.

Qəvvas, üz dərin-dərin,
Ləl dərində yaxşıdır.
Dayazlıq acizlərin
Nəzərində yaxşıdır.

Hələ uşaq olanda
Şirin nağıl yaxşıdır.
Saç-saqqal ağardana
Beyin, ağıl yaxşıdır.

Nisyə yağlı ümiddən
Yavan tikə yaxşıdır,
Bir yarıtmaz igiddən
Arıq təkə yaxşıdır.

Dost xoş gündə tanınmaz,
Dar ayaqda yaxşıdır.
Nəğməni el üçün yaz,
O, dodaqda yaxşıdır.

İnsan oğlu həmişə
Birsifətli yaxşıdır.
Alova, oda düşə
Mətanətli yaxşıdır.

Həyatda öz yerini
Hər kəs bilsə yaxşıdır.
Gizləyib kədərini
Gözlər gülsə yaxşıdır.

Külək kəsib səsini
Həzin əssə yaxşıdır,
Kürçaylı nəğməsini
Burda kəssə yaxşıdır.

1974

YAXŞI Kİ...

1

Yaxşı ki, dünyada qayğılarla bir
Ürəyi oxşayan lövhələr də var.
İliyi donduran ruzigarla bir
Sinəsi lalədən yanan yer də var.

Yaxşı ki, hər xırda buz duyğularla
Dolmur ömrümüzün qalın kitabı.
Bizi qovuşdurur daim baharla
Mikayıl fırçası, Qara rübabı!

Yaxşı ki, riyanın soyuq nəfəsi
Bizi əsir etmir hər vaxt, hər zaman.
Açır könlümüzü Bülbülün səsi,
Habilin çaldığı titrək bir kaman!

Yaxşı ki...
Yaxşı ki, xırda hissləri
Vaxtında qovuruq ürəyimizdən.
Yaxşı ki, çirkabı, gərəksizləri
Dalğalar sahilə atır dənizdən!

2

Yaxşı ki, kədəri sevincim qədər
Açıq bir ürəklə qarşıladım mən.
Yaxşı ki, güləndə qızıl bir səhər,
Qorxmadım axşamın düşəcəyindən.

Yaxşı ki, yasəmən çiçəkləyəndə
Bilirdim sonunda sarı xəzan var.
Anam beşiyimə layla deyəndə
Bilirdim ağı da deyir analar.

Yaxşı ki, ümidim toxumtək yerdə
Bilirdim dönüklük olur cahanda.
Bilirdim bəzən də bəd xəbər gəlir
Uğurlu bir xəbər arzulayanda.

Yaxşı ki, ümidim toxumtək yerdə
Ümidsiz anda da cücərdi, güldü.
Bəlkə buna görə keşməkeşlərdə
Sevincim doğuldu, kədərim öldü.

1974

NƏNƏLƏR

Qocalıb əldən düşüb – əl çəlik, ayaq çəlik.
Qucağına bir totuq nəvə alıb üstəlik.
Nəvə buz baltasıdır – igid yumruğu kimi,
Qucaqda yırğalanır qoyun quyruğu kimi.

Gör necə də yayxanıb artıq taxta sinəyə.
İndi öz donu belə yük olsa da nənəyə,
Körpəni qucağından yürə qoymur, saxlayır.
Özü taqətdən düşüb, yaşı yüzü haqlayır.
Bu körpəni ömrünə indi dayaq sanır o,
Özünü gövdə bilir, onu budaq sanır o.
Sanır ki, nəvəsini qucağından düşürsə,
Sinəsindən ayırıb başqa bir ələ versə
Ayın da, günəşin də rəngi olar qapqara,
Ulduzlar parıldamaz, dönər paslı mismara;
Bu işıqla həyat da vida elər nənəyə...
Körpəni bir az da bərk sıxır taxta sinəyə.

1976

FƏSİLLƏR

Kim deyir dəyişəndə fəsillər bir-birini
Onların köhnə ildə rəddi, izi qalmayır?!
Fosil daşa, dəmirə salır ləpirlərini,
Yaşayır canlı kimi, hərçənd özü qalmayır.

Yaz qaranquş dilində çevrilir mahnılara,
Teleqraf tellərində notlar kimi görünür.
Lalə ləçəyindəki qırmızı üstə qara
Baharın varlığını təsdiqləyən bir möhür.

Yay dostun ürəyində dönür oda, atəşə
Dost qəmini yandırır, dəmiri qaynaqlayır.
Elə buna görə də güney, quzey həmişə
Dağda bəyaz qarıyla sevincindən ağlayır.

Payız yanır budaqda bir qızılı nar kimi,
Günəşlərə çevrilir salxım gilələrində.
Səpir xəzəllərini bol qızılı var kimi,
Bu qədər zəri olmaz ən zəngin zərgərin də.

Qış düşmən sinəsində buzlayır şimal kimi,
Alır hərarətini əlcəkli əllərin də.
Torpağı üşütməyə salır xəstəhal kimi,
O sırsıra bağlayır günəşin tellərində.

Kim deyir dəyişəndə fəsillər bir-birini
Onların köhnə ildə rəddi, izi qalmayır?
Fəsil daşa, dəmirə salır ləpirlərini,
Yaşayır canlı kimi, hərçənd özü qalmayır.

1976

BİRİNCİ GÜN

Şalvarı dizədək, köynəyi dümağ,
Çantası toxunur dabanlarına.
Bu gün qədəm qoyur elə bil uşaq
Bəxtiyar ömrünün ilk baharına.
Baxır sağ əlinə gözucu hərdən,
Balaca çantası sanki cahandır.
Özü isə elə bil kosmosdan enən
Pavel Popoviçdir,
Andriyandır!

Ona elə gəlir bu gün küçələr
Daha yaraşıqlı, daha genişdir.
Heç kimin çantası yoxdur bu təhər,
Heç kəs onun kimi geyinməmişdir!

Sanır ki, bu saat hamı dayanıb
Onun yerişinə baxır mehriban.
Sanır ki, günəş də erkən oyanıb,
Axı, dərsə gedir bu kiçik oğlan!

O hələ hesabı bacarmasa da,
Bu günü saymışdı barmaqlarıyla.
Necə fəxr etmişdi
kiçik masada
Dəftərin çəpmilli varaqlarıyla!

O yonub rəngbərəng karandaşları,
Düzmüşdü səbr ilə qələmdanına.
Sual da etmişdi çatıq qaşları:
"Sabah bəs nə zaman olacaq, ana?"

İndi addımlayır məğrur, utancaq,
Elə bil dünyanı veriblər ona...
Şalvarı dizədək, köynəyi dümağ,
Çantası toxunur dabanlarına.

1962

NƏNƏMİN PALTARLARI

Nənəm don geyərdi topuğunadək,
Üstündən arxalıq dizdən yuxarı.
Burnu şiş, dabanı nallı çəkələk
Gedəndə vurardı mahnı notları.

Saçları örtərdi kürəklərini,
Altından yanardı bafta zər kimi.
Bəzən tac edərdi hörüklərini,
Şalvar da geyərdi kişilər kimi.

Nənəm nə "Avropa" sözü bilərdi,
Nə "maksi", nə "midi", nə də ki, "mini".
Nənəm elə salıb səni gülərdi
Desəydin bu dəbin gətrildiyini.

Parisdən, Romadan, ya Cenevrədən,
Divana çəkərdi səni az qala.
Deyərdi: "Bunları geyən zaman mən
O sənin Avropan hardaydı, bala? "

Nənəmin vüqarlı gur səsindəki
Mənaya şübhəylə baxsaydın, o vaxt
Deyərdi: – "Malıgin küçəsindəki
Paltarım saxlanan o muzeyə bax!"

Deyərdi: – "A bala, özgə sirkəsi
Neçün dodağında belə bal dadır?
De, neçün uzağın saxta sikkəsi
Qızıla çevrilib səni aldadır?"

Nənəm don geyərdi topuğunadək,
Üstündən arxalıq dizdən yuxarı.
Burnu şiş, dabanı nallı çəkələk...
O, dəbçün geyməzdi fəqət bunları.

Qolçağı qolunda, kəməri beldə:
Bunlar yadigardı öz nənəsindən.
İlan qabığından çıxantək ildə
O, bir yol çıxmazdı əlbəsəsindən.

Lakin nəvələri, nəticələri
Unutdu nənəmin paltarlarını.
Keçdi qərinələr o vaxtdan bəri,
Zaman da dəyişdi öz qərarını.

Dönüb "maksi" oldu nənəmin donu,
Zərli arxalığa "mini" deyildi.
Dəb deyə kənardan aldılar onu,
Böyük heyranlıqla burda geyildi.

Nənəmin ruhudur indi dillənən,
Məzarı od tutub yanır az qala.
Söyləyir: "Bunları geyən zaman mən
O sənin Avropan hardaydı, bala?"

Nənəmin vüqarlı gur səsindəki
Mənaya şübhəylə baxsalar, o vaxt
Deyər ki: "Malıgin küçəsindəki
Paltarım saxlanan o muzeyə bax!"

1971

QARTAL

Alim dostum Sadıq Murtuzayevə

İlisu, Beşbulaq, Şamil qalası,
O meşə örtüklü zümrüdü dağlar...
Xatirə düşəsi, yadda qalası
Saysız lövhələr var, mənzərələr var!..

Əsrlik daşları oyadan selin
Saldığı naxışlar qayalardadır.
Dağlar qoynundakı o doğma elin
Geniş süfrəsində duz da bal dadır.

Palıd elə durub dağın yalında,
Elə bil zirvəsi göyə dayaqdır.
Sizin bu füsunkar dağ mahalında
Gəzib dolaşıram mən də haçaqdır.

Bir duman parçası, bir dağ cığırı
Uzaq bir aləmə çəkir xəyalı.
Hərdən uzaqlarda qartal çığırır,
Tutur məğrur səsi eli, mahalı.

Dağların vüqarı artır bu səsdən,
Gülür zirvələrin meşə örtüyü.
Bu qartal səsidir çünki əzəldən
Dağın eşitdiyi, dağın gördüyü.

Qovub bir-birini bu yerdə illər,
İnsanlar doğulub, dünyadan köçüb.
Sənin atan, baban – neçə nəsillər
Dostum, Beşbulağın suyundan içib.

Deyib nəğməsini qartallar kimi,
Uca zirvələrdə məskən salıbdır.
Onlar təmiz olub dağda qar kimi,
Onlardan yadigar mərdlik qalıbdır.

Bir də ki, qartalın dediyi nəğmə...
Onsuz yetim qalar bu dağlar, ay dost.
Sən ona adi bir nəğmədir demə,
Düzüb bəstəsini bulaqlar, ay dost.

Baban da oxuyub onu, atan da,
Sən də oxuyursan qartalsayağı.
Sənin də ulduzun bir gün batanda
Ötəcək oğlunun qartal dodağı.

Zirvələr şahının özü də bəlkə
Sizdən öyrənibdir bu qıy vurmağı.
Onun uzaqgörən gözü də bəlkə
Sizdən öyrənibdir məğrur durmağı.

Bəlkə də atanın xəyalıdır o,
Göyün sinəsində asılıb qalıb.
Bu yerin öz doğma qartalıdır o,
Lacivərd mərmərə qazılıb qalıb.

Gəzirəm yenə də sizin mahalı,
Göz zirvə axtarır, könül ucalıq.
Süzürəm qıy vuran məğrur qartalı,
Ömür vəfasızdır, insan qocalır...

...İlisu, Beşbulaq, Şamil qalası,
O meşə örtüklü zümrüdü dağlar...
Xatirə düşəsi, yadda qalası
Saysız lövhələr var, mənzərələr var!..

1966

DOST KƏDƏRİ

Mən öz xislətimə çoxdan bələdəm,
Onu nə qərinə, nə il dəyişdi.
Olub qəm çəkdiyim,
fəqət hələ də
Gözümdən bir gilə yaş gəlməmişdir.

Mənim bu dünyada elə dostum var, –
Silib göz yaşımı gülüşləriylə,
Məni unudanda bəzən adamlar
Bahar gətiribdir gəlişləriylə.

Bu dostu kədərli görmək ağırdı,
O sənə əzizdi axı, canından.
Bu gün mən gördüm ki,
leysan yağırdı
Onun gözlərinin asimanından.

Mənə ömrü boyu təsəlli olan
Özü ağlayırdı bir uşaq kimi.
Dağa bənzətsək də,
dağ deyil insan
Hər dərdin önündə dura dağ kimi.

Yox, ona təsəlli verəmmədim mən,
Özümü saxladım...
Bir an saxladım.
Ömrümdə göz yaşı bilməzdim
Birdən
Dostuma qoşulub özüm ağladım.

1973

DƏNİZ İNSANDIR

Mənə elə gəlir insandır dəniz,
İnsanın səsi var onun səsində.
Elə ki, köpürdü, oyandı dəniz –
İnsanı görürəm köpürməsində.

Sanıram dalğalar döyünən ürək,
Bu başsız küləklər nəfəsdir ona.
Çarpışmaq, çağlamaq, coşmaq, köpürmək
Canlı bir şahiddir insanlığına.

Bəlkə buna görə coşanda dəniz
Biz ona deyirik: – Narahat insan!
Bəlkə buna görə insana da biz
Dəniz söyləyirik çağlayan zaman?!

1965

NİFRƏT VƏ MƏHƏBBƏT

Heyranam qəlbinə insanların mən,
Orda nifrət də var, məhəbbət də var.
Dalıb xəyallara deyirəm bəzən:
Necə qərar tutur bir yerdə onlar?

Axı, necə olur sevən bir ürək
Nifrət də yaşadır isti qoynunda?
Çalxanıb köpürən coşqun dəniztək
Üzü birdən-birə dönür onun da?

Yox, qəzəb ürəyin sükutundadır,
Oyansa özünsən demək günahkar.
Yağış da göylərin buludundadır –
Şimşəklər çaxmasa leysanmı yağar?

İnsanlar nə etsə, ürəkdən edir,
Bir qəlbdə yaşayır nifrət, məhəbbət.
Hansını qazansan demək sənindir,
Tələsmə, əzizim, yaxşı seç fəqət.

Sən nifrət qazansan öz əməlinçün
Əlindən tutmazlar darda, çətində.
Məhəbbət qazansan səbəb özünsən
Onlar nə "tale"də, nə "qismət"də var.

1964

***

Bilirsən həyat nədir?
Həyat – məhək daşıdır!
Ağır dağları da o,
Çiyinlərdə daşıdır.
Verdiyi bəzən sevinc,
Bəzən də göz yaşıdır.
Lakin mərd insanların
Dostudur, qardaşıdır.
Sevir bir sözlüləri,
Sevir bir üzlüləri!
Hünərə qahmar çıxır,
Tək hünəri sevir o.
Bir sifətli, bir üzlü
Kişiləri sevir o.

1961

***

Xərclədim gəncliyi qara pul kimi
Yerini bilmədən, əsirgəmədən.
Vardan-yoxdan çıxan bir yoxsul kimi
Onu axtarıram, axtarıram mən.

Kefdəmi, nəşələr qucağındamı
Getdi o illərim, getdi gəncliyim?
Gözəl xanımların dodağındamı
Soyuq öpüş kimi itdi gəncliyim?!

1958

***

Məhəbbət, qəribə oyunların var,
Sən demə, sevirmiş hətta ilanlar.
Baxıram, bir kolun dibində pünhan
Qıvrılıb yanaşı iki boz ilan,
Sarmaşıb, dolanıb biri-birinə,

Dünya görünməyir nəzərlərinə.
Ehtiras odunda onlar yanırlar,
Eşqin qucağında xumarlanırlar.
Süzür məhəbbətlə arvad ərini,
Onlar unudublar zəhərlərini.
İlan təbiəti çıxıbdır yaddan,
Fəqət necə olsa ilandır ilan!
Doğrudur, məhəbbət öz qüdrətində
Kövrək duyğulara qadirdir ancaq, –
Lakin ilandakı məhəbbətin də
Meyvəsi zəhərli ilan olacaq.

1976

***

Tarizən, çaldıqca qurtarmır yenə,
Sinəndə nə qədər mahnı var sənin!
De, necə sığışır kiçik köksünə
Sevincli, kədərli mahnılar sənin!

Çalırsan bir anda gözlərim dolur,
Oyanır başımda neçə xatirə.
Hər xalın canlanıb bir lövhə olur,
Barmağın dəydikcə zil pərdələrə.

Çalırsan, elə bil nəql eləyirsən
Bir ömrün kədərli tarixçəsini.
Hardan, söylə, kimdən öyrənmisən sən
Bu qəmli ürəyin titrək səsini?

O sinən sirrlərin xəzinəsimi?
Hər dəstgah bir ömrün yoludur, nədir?
Nəğmən tükənməyir dəryalar kimi
Tarizən, ürəyin doludur, nədir?

Yenə bir hekayət çal bu gün mənə,
Neçə çalınmamış mahnın var sənin.
De, necə sığışır kiçik sinənə
Sevincli, kədərli mahnılar sənin?

1960

***

Yaman oxşayırsan, deyirlər, mənə,
Qaşların, gözlərin guya mənimdir.
Üzümün rəngi də çökmüş üzünə...
Qoy ata gözüylə sənə baxım bir.

Görkəmin mənə də çox tanış gəlir,
Elə bil mənimdir səndəki gülüş.
Güləndə yanağın batır, çökəlir...
Sanki bir almayıq iki bölünmüş.

Qəlbim dağa dönür bu bənzəyişdən,
Qaşınla, gözünlə mənə oxşa sən –
Gözümün nuru da gözünün olsun!

Əksini qoy səndə seyr etsin atan.
Ancaq, əziz balam, çalış hər zaman
Bir ürək, bir beyin özünün olsun!

1955

ADSIZ ŞEİRLƏRİM

Ad qoymuram sizə mən
Təzə olmuş uşaqtək.
Düzdür, körpəliyindən
Uşaq ad alsın gərək.

Ad veririk biz bəzən
Əzvaylara – Mehriban,
Qorxaqlara – Qəhrəman,
İdbar insana – Mələk,
Çirkin insana – Çiçək,
Cəllad insana – Adil,
Nadan insana – Aqil...
Bəzən də çirkin adda
Rast gəlirik ilahi,
Gözəl-göyçək qadına.

Belə olur həyatda –
Çox zaman bənzəməyir
İnsanlar öz adına.

Ey adsız şerlərim,
Ad qoymuram sizə mən.
Qəlbimin parçasıtək
Qopdunuz ürəyimdən.
Bircə onu bilirəm
Yaranıbsız, varsınız.
Yaşamağa haqqınız
Olsa,
Ad alarsınız!

AY DOST!

Bir zamanlar vardı ki,
Mərd idin, insan idin.
Sözünlə, söhbətinlə
Ürəyə dərman idin.
Gülərdin – gülüşlərin
Hamını güldürərdi.
Baxışların qəlblərin
Qəmini öldürərdi.
Sən zülmətdə qəfildən
Doğan günəş kimiydin.
Gözün yarıyumulu
Güləndə ehtirasla,
Sən günahsız uşaqdan
Seçilməyirdin əsla.
Sən ağılda – ixtiyar,
Həvəsdə -- bir uşaqdın.
Sən riyadan, məkrdən,
Yalandan çox uzaqdın.
Saymaqla qurtararmı? –
Sən beləydin, beləydin.
Bircə şeyə yanıram –

Kaş o zaman öləydin.
Bax, bu xislətinlə sən
Qalaydın yadımızda.
Adın əzbər olaydı
Daim dildə, ağızda.
Gör necə də dəyişdin,
Sanki heç o deyilsən.
Sən ikiqat olursan
Bir rütbəli əyilsə.
Gör necə artırmısan
Sifətinin sayını.
Min cilidə girirsən
Almaq üçün payını.
Nə əvvəlki hünərin,
Nə cürətin qalıbdır,
Nə dosta örnək olan
Təbiətin qalıbdır.
Keçmişdən bir familin,
Bir də adın qalıbdır.
Tanımayır görənlər,
Kim deyir ki, beləydin?
Gərək onda öləydin,
Ay dost, gərək öləydin!

1960

KOR

O, giləsiz gözlərində qorxu, tələş
Döyəcləyir ağacını qır səkiyə.
Addımlayır ehtiyatla, yavaş-yavaş,
Mən baxıram üzündəki səksəkəyə.

Elə bil ki, uçurumun önündədir,
Bircə addım atsa sanki yıxılacaq.
Bəlkə bilmir küçə nədir, səki nədir,
Hara isə, hara isə gedir ancaq.

Budur, çatır bir səkinin qırağına,
Bu tərəfə keçməlidir küçəni o.
Bir hənirti gələn kimi qulağına
Günahkartək haraylayır keçəni o.

"Getmə, dayan, o tərəfə apar məni!"
Ağacını qır səkiyə döyür yenə.
Yazıq-yazıq o çağırır yol keçəni,
Tələsirəm mən şikəstin köməyinə.

Bir əliylə bərk yapışır qolumdan o,
Addımını cəsarətlə atır indi.
Sanki qorxu duymamışdı yolunda o,
Sanki gözlər mənim deyil, özünündür.

O, inamla addım atır irəliyə,
Milyon gözlü bir insandı o, elə bil.
Sanki bayaq çəliyini döyə-döyə,
Qorxa-qorxa addımlayan heç o deyil.

Müsafirim bircə şeyi bilir ancaq:
– Mən gözlüyəm! – bu onunçün həqiqətdir.
Düşünürəm, gözlülərin arxasınca
Kor olsan da, yol yerimək səadətdir!

1966

QAĞAYILAR AĞLAYIRDI

O, səssiz ayrılıb yoldaşlarından
Tanış xiyabanla sahilə gəldi.
Donuq görünürdü dəniz bu zaman,
Üfüqlər təmizdi, sular gözəldi.

Ona elə gəldi, mavi suların
Üzündə şüşədən örtüyü vardı.
Sahilin qumları un kimi narın,
Xət-xətdi, zol-zoldu, damar-damardı.

Dayanıb uzağa baxdı bir müddət,
Sonsuzluq önündə oğlan döyükdü.
Onu bircə anda bürüdü heyrət,
Dedi öz-özünə: dəniz böyükdü!..

O büküb kağızdan gəmi qayırdı,
Buraxdı qumluqda dayaz bir yerə.
Əsən meh gəmini avarlayırdı,
Qovurdu sahildən dərinliklərə.

Qumluqda dayanıb kiçik "kapitan",
Görürdü ağ gəmi hey uzaqlaşır.
Elə bilirdi ki, balaca oğlan,
Bu kağız üzərək üfüqlər aşır.

Elə bilirdi ki, bu kağız gəmi
Gedib çatacaqdır sirli sahilə.
Uşaq görməsə də həmin aləmi,
Onu xəyalında qururdu belə:

... Ulduzlar sayrışır göyün tağında,
Ay da bir deyildir – ulduz qədərdir.
Günəş də batmayır axşam çağında,
Gecə də, gündüz də orda səhərdir.

... Əyir budağını qızıl almalar,
Hər fəsil bəhrəli-barlıdır orda.
Desən gül açılar, desən qar yağar
Dəniz dalındakı həmin diyarda.

Uşaq düşünürdü sirli aləmi,
Gəmi ləpələrin üstən aşırdı.
Uşaq düşünürdü... Sanki bu gəmi
Onun arzusuna yaxınlaşırdı.

Hələ qağayılar! Suya qonanda
Oğlanın gəmisi itirdi birdən.
Ayıra bilmirdi uşaq bu anda
Dəniz quşlarını öz gəmisindən.

Bu zaman qəfildən oyandı külək,
Dənizin aynası sındı ortadan.
Oğlanın gəmisi ləngərləyərək
Girdabın qoynunda qərq oldu haman.

O sirli aləm də sanki boğuldu,
Gəmiylə birlikdə batdı sulara,
Kövrəldi, uşağın gözləri doldu,
Sanki bütün aləm geyindi qara.

Bəyaz qağayılar bir uşaq kimi
Hıçqırıb, hönkürüb, çığırışdılar.
Qayığı sulardan alacaq kimi
Hərdən dalğalara qarışırdılar.

Onlar ağlayırdı... Oğlan sanırdı
Onun kədərinə şərikdi quşlar.
İndi böyüklərtək o inanırdı:
Dənizin naqafil tufanı da var!

Uşaq anlayırdı kağız qayıqlar
Dənizi adlayıb çatmaz mənzilə.
Anladı dənizin tufanları var,
Zarafat eləmək olmaz dənizlə!

Seyr edib suları yaşlılar sayaq,
Döndü asta-asta sahildən geri.
Onun qulağına gəlirdi ancaq
Qağayı səsləri, dalğa səsləri...

1966

***

İnsan yalnız bir dəfə gəlir dünya üzünə,
Yalnız bir yol baxırıq aya, ulduzlara biz.
Ah, ikinci bir ömrü verə bilsələr mənə!
Yox, bu yalnız arzudur, ömür birdir, şübhəsiz.

Bu məni qorxutmayır, qorxutmayır, sevgilim,
Qoy günəşin üzünü bircə yol görüm, nə qəm!
Düşünürəm arabir, ürəyimdə nisgilim,
Birdən bu bir ömrü də mənalı keçirməsəm...

Sevgilim, istərəm ki, bağ salam, evlər tikəm,
İsti, soyuq bilmədən ellərə keşik çəkəm –
Sən ömür kitabımı yalnız belə varaqla.

Yaylı çarpayılarda yataraq axşam, səhər,
Ömrü nəşə içində mən başa vursam əgər,
Sevgilim, and verirəm: nə yas tut, nə də ağla!

1954

GECƏLƏR AY OLMAQ İSTƏYİRƏM MƏN

Gecələr ay olmaq istəyirəm mən,
Pərdəli-pərdəsiz pəncərələrdən
Dolmaq istəyirəm neçə otağa.
Mən neçə süfrəyə, neçə çırağa
Baxmaq istəyirəm hamıdan pünhan
Səma tağlarının ucalığından.

Gecələr ay olmaq istəyirəm mən...
Şirin laylaları ana dilindən,
Ana dodağından eşidim deyə.
Mən ağlı-qaralı neçə talcyə
Baxmaq istəyirəm ağarınca dan
Səma tağlarının ucalığından.

Gecələr ay olmaq istəyirəm mən...
Bir günlük işindən qayıdıb gələn
Qabarlı əlləri öpmək eşqinə.
Yorğun röyaların şirinliyinə
Keşik çəkmək üçün sakit, mehriban
Səma tağlarının ucalığından.

Gecələr ay olmaq istəyirəm mən...
Sevən ürəklərin məhəbbətindən
Səma ucalıqda pay almaq üçün,
Ən yüksək qübbəyə ucalmaq üçün...
Ordan nur səpərəm mən incə-incə
Bu ana torpağa dan sökülüncə.

Nahaq yaranmayıb bu arzu məndə
Bəzən gecələrin sakitliyində
İnsan öz qəlbiylə edir həsb-hal,
Keçir ürəyindən min arzu, xəyal.
Bununcün ayrılıb öz xislətimdən
Gecələr ay olmaq istəyirəm mən.

1964

BƏLKƏ

Gecədən çox keçir,
Yataq, əzizim,
Sabahın nə qədər qayğıları var.
Sabah yolumuzu gözləyir bizim
Neçə nigaranlıq, neçə intizar.

Kiminsə qəlbinə dəyəcəyik biz,
Kimsə qəlbimizi sındıracaqdır.
Bəlkə bir duyğusuz, hissiz, ürəksiz
Bizi odlayacaq, yandıracaqdır.

Bəlkə köksümüzə sığmayan arzu
Kiminsə əlilə puç olacaqdır.
Bəlkə bu dərd ilə ömrümüz boyu
Sinəmiz alışıb qovrulacaqdır.

Bəlkə ən nəşəli dəqiqələrdə
Bizi haqlayacaq acı bir xəbər.
Bəlkə taleyimiz güldüyü yerdə
Onu ağladacaq alçaq bir nəfər.

Bəlkə birisinin vurduğu ləkə
Dönüb olacaqdır sonsuz fəlakət.
Eh, nə qədər güman, nə qədər bəlkə
Çevrilib dünyada olub həqiqət!

Neçə "bəlkə"miz var qabaqda bizim
Neçə nigaranlıq, neçə intizar.
Gecədən çox keçir,
Yataq, əzizim,
Sabahın nə qədər qayğıları var.

1969

MƏN İNSANAM

Məndə sığar iki cahan,
mən bu cahana sığmazam.
Nəsimi

Həyatın hər üzü mənə tanışdır,
Sanki varlıq mənəm, bu həyat mənəm.
Heç bir şey ruhuma yad olmamışdır.
Qəmdə sevinc gəzən, nəşələrdə qəm
Duyğular yurdudur mənim bu sinəm.

Mən elə ağlaram – göz yaşlarımdan
Quruyan otlar da göyərər, bitər.
Göylərin leysanlı yağışlarından,
Yerlərin selindən, suyundan betər
Axar göz yaşlarım, axar sərasər.

Mən elə gülərəm - təbəssümümdən
Əriyib tökülər quzey qarı da.
Dağılar dağları tutan duman, çən,
Əriyər dağların dağ vüqarı da,
Əriyər günəşin şüaları da.

Mən elə sevərəm – məhəbbətimi
Bölsən bəs eləyər bütün bəşərə.
Elə kin bəslərəm – ədavətimi
Töksən daşqın düşər bəhri-Xəzərə,
Mənim nifrətimdən yanar dağ-dərə.

Desələr qış günü ollam gül-çiçək,
Yayda görərlər ki, yağan qar mənəm.
Dörd fəsli özündə yaşadan ürək
Bilir bu aləmdə hər nə var – mənəm,
Duyğular, istəklər, arzular mənəm!

1969

***

"Keyfiyyət nişanı" vurulur indi
Maşına, kibritə, lap kəlbətinə.
Fəqət belə nişan tapmaq çətindi
Vurula insanın keyfiyyətinə.

Ürəkdə infarktı, qan dövranını
Rentgen şüaları göstərir fövrən.
Qəlbin saflığını, həyəcanını
Göstərən bir cihaz istəyirəm mən.

Cərrah kəsib atır çirki, irini,
Kəsilir bəd yara, böyrəkdəki daş.
İnsanın yaramaz əməllərini
Kəsən bir bıçaq da tapılaydı kaş.

Arzular gözəldir!
Hər sözümüzdə
Saflığı, düzlüyü salırıq yada.
Bunu deyə-deyə biz özümüz də
Nələr eləmirik qoca dünyada!

1975

ETİBAR

Göyərçinin qan qardaşı alabaxta
Pəncərəmin qabağında bir budaqda
Öz səsinə heyran kimi ötür: qur-qur,
Elə bil ki, öz-özünün vurğunudur.
Ürəyimdə baş qaldırır arzu-istək:
Əllərimi bu quşcuğa vuram gərək!
İlıq-ilıq sığallayam lələyini...
Quş deyəsən başa düşdü diləyimi.
Qopdu yaşıl budağından külək kimi,
Göy səmaya milləndi o, fişəng kimi.
Mən ki ona əl vurmazdım pis niyyətlə,
Oxşayardım bir insani məhəbbətlə.
Seyr edirəm: fəzaları yara-yara
O, baş vurur buludlardan buludlara.
Elə bu dəm hücum çəkdi qırğı ona,
Şimşək kimi şığıyırdı öz ovuna.
Nəğməkarın lələkləri çözələndi,
Göydən yerə əlçim-əlçim tük ələndi,
Ət hərisi, qan hərisi qırğıya bax,
Caynaqları iynə-iynə, bıçaq-bıçaq.
Onun üçün pərvaz nədir, nəğmə nədir –
Gözü yalnız həmcinsinin ətindədir.
Heyrət, qana hərislərin bu halına!
Mən baxıram quşla quşun cidalına.
Alabaxta gördü ömrün son anını.
Qurtarmaqçün bu hərisdən öz canını
Endi yerə buludlardan sürətlə o,
Gəlib girdi qucağıma cürətlə o,
Bayaq məni özü üçün düşmən sanan,
Əllərimi uzatmamış havalanan
Mənə pənah gətirmişdir indi budur.
Köksündə bir imdad deyən ürək vurur.
Həmcinsinin əllərindən qaçan bu quş,
Pənah üçün yad qucağa uçan bu quş
Yəqin bildi dostluq nədir, düşmən nədir,
Bildi ömrü etibarlı əllərdədir.

1976

***

Yağışdan qorxuram,
Güclü yağışdan...
Göylər kirpik çalıb ağlamamışdan
Qorxudur yağacaq leysanlar məni.
Yox, yox, qınamasın insanlar məni.
Sönməkdən qorxuram,
Sönmək yamandı!
Bir ovuc boz külə dönmək yamandı...
Lalədən rəng alan parlaq közəm mən,
Nəfəsi atəşli, odlu sözəm mən,
Alışan tonqalam, yanan tonqalam,
İstərəm ömürlük bu sayaq qalam, –
Onunçün qorxuram güclü yağışdan...

Bir də ki, buz rəngli soyuq baxışdan.
Ah, soyuq baxışlar,
Soyuq baxışlar!
Sizdən gileyim var, şikayətim var.
Uçmaq istəmişəm – endiribsiniz,
Yanmaq istəmişəm – söndürübsünüz,
Dinmək istəmişəm – susdurubsunuz.
Siz məni öldürüb, basdırıbsınız
Sözsüz, hərəkətsiz –
Soyuq baxışla!
Təmiz bir duyğuyla, saf anlayışla
Günəş hərarətli közə dönmüşəm,
Lakin sizi görcək buza dönmüşəm.
İçimdə boğulub qalıbdır səsim,
Sönübdür alışmaq, yanmaq həvəsim.
Onunçün qorxuram soyuq baxışdan.
Yağışdan qorxuram...
Güclü yağışdan!

1969

GÜNƏŞİN SƏSİ

Biri haray salar,
Elə sanar ki,
Dünya oyanacaq onun səsindən.
Biri səssiz-səssiz elə yanar ki,
İqlimlər nurlanar hər şöləsindən.

Küləyin nə rəngi, nə ünvanı var,
Gah başı sığallar, gah öpər yeri.
Qalxdımı –
Çırpılar, sınar qapılar,
Tökər ev üstündən kirəmitləri.

Nə qədər qulağı batırar səsi,
Pozar ahəngini neçə nəğmənin.
Onun dörd tərəfə başsız əsməsi
Qəlbinə sıxıntı gətirər sənin.

Günəş üfüqlərdən qalxar, boylanar,
Yayar kainata öz şöləsini.
Səmanı, torpağı nura boyayar,
Çıxarmaz bir an da fəqət səsini.

Lazımsa əridər sal buzları da,
Qəlblərdə ümiddən məşəl yandırar.
Gecələr ayı da, ulduzları da
Sonsuz səxavətlə işıqlandırar.

***

Deyin, bu dünyada nə görmüşəm mən?
Ən gözəl günlərim hələ daldadır.
Günəş alovundan nur alıb gələn
İşıqlı səhərim hələ daldadır.

Mən sakit göl kimi durulmamışam,
Köpürüb daşmaqdan yorulmamışam.
Sanki heç ömrümdə vurulmamışam,
Məhəbbət əsərim hələ daldadır.

Vurğunam insanın səadətinə,
Onun dözümünə, mətanətinə.
Çıxıram qəlblərin səyahətinə,
Ən böyük səfərim hələ daldadır.

1961

***

Açın qapıları, açın taybatay,
Buraxın otağa gələn səhəri.
Qoy bahar yelləri salaraq haray
Çəkib yerə töksün tül pərdələri.

Qırsın pəncərəmin şüşələrini,
Saçımı dağıdıb töksün üzümə.
Təzəcə yazdığım son əsərimi
Alıb səpələsin çölün düzünə.

Qoy bahar yelləri bir dəm coşaraq
Laləli çöllərə yağdırsın da qar –
Yox, yox incimərəm,
Bilim ki, ancaq
Gələn xəzan deyil,
bahardır, bahar!

1963

ÇAY

Nə bu yaşıl şamlar, nə ağcaqayın
Meşə ətəyilə axan o çayın
Bilmir tarixini, yaşını bilmir.
Üstündən fəsillər keçdikcə bir-bir
Gah yatır. gah qalxır məcrasında o,
Yabanı kolların arasında o,

Harasa harasa baş alıb gedir...
Bulanıq suları boşalıb gedir...
Üstündən bir insan onun keçməmiş,
Əyilib suyundan kimsə içməmiş,
Uzaqdan görünür itmiş iz kimi;
Bütün bir dünyada xəbərsiz kimi
Həmin bu kiçik çay durmadan axır.
O hardan başlayır, o hardan axır,
O çay hara axır? – məlum deyildir.
Axır bu minvalla o neçə ildir.

Ona bənzəməsin qoy sənin ömrün,
Yığışıb həyatdan köçəndə bir gün
Desinlər: – Bu ömrün mənası vardı,
O burdan başladı, burda qurtardı!

1955

***

Yol uzundur... Görünməyir nə əvvəli, nə sonu,
Lakin başa vurmalıyam mən onu!
Qoy töyşüsün hərdən sinəm, qoy kəsilsin
nəfəsim,
Yox, azalmaz bir an mənim həvəsim!
Bənzəmərəm yol üstündə atılmış bir daşa mən,
Yox, bu yolu necə olsa, vuracağam başa mən!

1960

İZLƏR

Dünən qarın üstündə mən
Gördüm ayaq izlərimi.
Bəs o izlər itdi nədən
Bu gün günəş doğan kimi?

Üzərində qarlı yerin
Iz salmaq çox asan olur.
Asan düşən o izlərin
Ömrü, ey dost, bir an olur!

Çətin olsa belə, çalış –
İzin düşsün daş üstünə,
Min odlu yay, min qarlı qış
Poza bilməz onu yenə!

KƏNDİMİZƏ GƏLDİYİM GÜN

Salam, doğma kəndim, əziz oylaqlar,
Görünür, könlümü sıxıb uzaqlar.
Ay gümüş söyüdlər, ağcaqovaqlar,
Sizsiz köksümü çox ötürmüşəm mən.

Arxamca su atdı kəndin əlləri,
Ötdü tufanlarda ömrün illəri.
Mənə bəxş etdiyin qara telləri
Ağardıb qoynuna gətirmişəm mən.

Qayıdıb gəlmişəm könlü pərişan.
A kəndim, deyəsən, axı, bir zaman
Ömür dastanımın səndə başlayan
Sonuncu fəslini bitirmişəm mən?!

Deyirlər adətdir hind torpağında:
Dağ gövdəli fillər ölüm çağında
Gəlib can tapşırır Dekan dağında,
Yoxsa fil adəti götürmüşəm mən?

Burda imək̈ləyib durdum ayağa,
Nolar, qoy çevrilim burda torpağa.
Dönəndə bir ota, yaşıl yarpağa
Deyərəm: bunları bitirmişəm mən!

Ürək öz oduna gərək qızına,
Kəndim, istəyirsən yenidən sına –
Həmişə toyuna, sənin yasına
Özümü quş kimi yetirmişəm mən.

Elimin qəzəbi qılıncım olub,
Onun məhəbbəti yapıncım olub.
Elə nə vermişəm – qazancım olub,
Elsiz nə yığmışam – itirmişəm mən.

1972

***

Zərrəyə, kiçikliyə, cılızlığa yadam mən,
İstəmişəm hər şeyin nəhənginə çatam mən.
Nəhəng olsun məhəbbət –
pultək xırdalanmasın,
Nəhəng olsun nifrətim –
kükrəsin, dayanmasın.
Nəhəng olsun sevincim –
sönməsin atəşi də,
Nəhəng olsun kədərim –
yandırsın günəşi də!
Nəhəng olsun istəyim –
necə Kür aşıb-daşır,
Arzu kiçik olanda adam da cılızlaşır.
Nəhəng olsun çörəyim –
ölçüsüz yer şarıtək,
Nəhəng olsun ürəyim –
yurdun səhralarıtək.
Nəhəng olsun süfrəmiz –
bir səma içi olsun,
Mənim ordan aldığım loxma
qoy kiçik olsun.

1970

İNSAN QÜDRƏTİ

Deyirlər hər nə varsa – səma da, ay da, gün də
Yaranıb ki, sınasın insan iradəsini.
Uca dağlar yaranıb zirvə olsun üstündə,
İnsanlar fəth eləsin dağların zirvəsini.

Uca dağlar yaranıb obaların, ellərin
Sədd olsa arasında insanlar yarsın onu.
Çay yaranıb dodağı yanan zaman çöllərin
İnsanlar məcrasından çölə aparsın onu.

Çay yaranıb, görsün ki, insanlar bir-birinə
Həsrət qalsa, üstündən körpü sala bilirmi.
İnsan düşsə zamanın zülmət gecələrinə,
Onun büllur suyundan işıq ala bilirmi.

Sonsuz fəza yaranıb sınasın insanları,
Görsün insan quş kimi qanad açа bilirmi.
Yalan, riya yaranıb sınasın insanları
Görsün bəd əməllərdən insan qaça bilirmi.

Despotlar yaranıb ki, məhbəs tiksin insana,
Görsün daş zindanları insan yıxa bilirmi,
İnqilablar yaranıb nur gətirsin cahana,
Görsün insan hər şeyə açıq baxa bilirmi.

Dünya qara geyinər insan müti olarsa,
Ətalət nəğmə deyər insan qıssa səsini.
Təbiətdə, həyatda əzəl gündən nə varsa
Yaranıb ki, sınasın insan iradəsini.

1976

ÇÖRƏK

Təzəcə şumlanan torpağın ətri
Məst edir,
Burnumu qıcıqlandırır.
Baharda gəzəsən bizim bu yeri,
Zəmilər zümrüdü gölü andırır.

İndisə payızdır.
Torpaq çevrilir
Qara bir kitabın varağı kimi.
Torpağın qoynuna dən düşür bir-bir,
Günəşin doğranmış saçağı kimi.

Torpağa dən düşür,
Yadıma illər...
Kim deyir illəri anmaq hədərdi?!
Ən acı xatirə –
Belə deyirlər –
Çörəklə bağlanan xatirələrdi.

Ən ağır sınaq da çörəklə olar,
O açır, ağardır əyrini, düzü.
Göyə üz tutaraq yazıq babalar
Deyərmiş:
Çörəklə sınama bizi!

Çörəyə deyiblər ərzin yaşıdı,
Birinci o açıb torpaqda çiçək.
Dünyanın ən qədim vətəndaşıdır
Bu gün süfrəmizi bəzəyən çörək.

Çörək bol olanda duyulmur heç nə,
Sanırsan axşam da nurlu səhərdir.
Sən insan yolunda canından keçmə,
Bircə çörəyindən keçsən, hünərdir!

Çörək də günəştək götürmür ləkə,
Sanırsan
Onun da bol zəri vardır.
Elə ona görə çörəyin bəlkə
Günəşə bu qədər bənzəri vardır!

Çörəkli kişilər mərd sanılıbdır,
Dildən-dilə düşüb öz süfrəsiylə.
Çörəkverməzlər də tez tanınıbdır –
Dönüş xisləti yle, əqidəsiylə.

Mənim hafizəmdə həkk olub qalan
Nə həsrət, nə xeyir, nə də ki, şərdir.
Yaddaş kitabımda dərin iz salan
Çörəklə bağlanan xatirələrdir.

Mən hərb illərində son tikəsini
Yetim bir uşaqla bölən görmüşəm.
Yarıac oxuyub şən nəğməsini,
Kədərli-kədərli gülən görmüşəm.

Kiminsə ağzından alıb
Bazarda
Qanı qiymətinə satan görmüşəm.
Çəngəli çörəklə aşxanalarda
Silib,
Külqabını atan görmüşəm.

Qəhrəman
Aclığın məngənəsində
Sıxılıb dönsə də kibrit çöpünə,
Əqidə yolunda
Son nəfəsində
Düşmən tikəsin yeməyib yenə.

Ürəklə qazansan əgər çörəyi,
Demək o, qəlbinin saf nəğməsidir.
Bəlkə buna görə çörək ürəyin
Ən gözəl,
Müqəyyəd qafiyəsidir?!

...Gəzirəm,
Zəmilər şırım-şırımdır,
Şırımlar içində sapsarı buğda.
Onlar cücərəcək arzularımdır –
Hələlik uyuyur qara torpaqda.

Gəzirəm çölləri,
Zəmidir hər yan,
Buğda dənələri elə bil zərdir.
Mənim yaddaşımda qəfil oyanan
Çörəklə bağlanan xatirələrdir.

1971

YER QAZILIR

Yer qazılır,
Bir binanın bünövrə yeri...
Alt qatları varaqlayır insan əlləri.
Daşlar çıxır
Üzərində xətt, naxış, yazı.
Qəbzəsində barmaq yeri qılınc parçası...
Pas atmış ox.
Bürünc başlıq,
Əyilmiş cida
Dövran sürmüş babaları gətirir yada.
Anam Bakı,
Qəhrəmanlıq torpağı oldun,
Yaranışdan düşmənə göz dağı oldun,
Yer qazılır...
Bir tarixdir onun hər qatı,
İnsan kimi dilə gəlir torpağın altı.
İgid baba,
Hünərini dedikcə bizə
Neçə-neçə sual gəlir ürəyimizə:
Bu qılınclar, bu nizələr,

Oxlar kimindir?
Üzərinə qoşun-qoşun axıb yeriyən,
Torpağında silahıyla birgə çürüyən
Min fatehin, qəsbkarın – düşməninindir.

1964

KÜRÜM

Oğul anasından ayrıla bilməz,
Köküylə bağlıdır ağac torpağa.
Mənim ana Kürüm, neçə oldu bəs
Sənin sahilindən düşdüm uzağa?

Azmı dinləmişdim laylalar kimi
Nəğməli yaşılsaç söyüdlərini?
Anaya mehriban balalar kimi
Azmı dinləmişdim öyüdlərini?

Sənin ləpə dilin necə şirindi,
Ağzım dada gəlir onu ananda.
Eşqin sularıntək safdı, dərindi
Boğulmaq istərdim burulğanında.

Səndən öyrənmişdim etibarı da,
Nur kimi içdikcə gur sellərini.
Yoxsa peymanımız qaldı yarıda?
Tərk etdim göyəmli sahillərini...

Kürüm, Ərzurumdan Muğana kimi
Axdın, nə yoruldun, nə də dincəldin.
Ordan da vəfalı bir ana kimi
Oğlunun dalınca Bakıya gəldin.

1971

TARİX DƏRSİ

Oğlum imtahandan kəsilib dünən,
O yaxşı bilməyib tarix dərsini...
Elə bil ürəyim kəsildi birdən,
Düşündüm bu dərdin fəlsəfəsini.

Oğul,
Tarix dərsi elə dərsdir ki,
Hakim də, məhkum da unutmur onu...
Tarixin bir fəsli sənə bəsdi ki,
Biləsən bir əsrin nə olduğunu.

Dünəndən bu günə xəbər gətirən
Mən özüm canlı bir tarix kimiyəm.
Kitaba, dəftərə baxmasam da mən,
Əzbərdən bir tarix söylərəm bu dəm.

Bir vaxt uşaq idim sənintək, uşaq...
Yox, qismət olmayıb uşaqlıq mənə,
Anadan, bax belə, saç-saqqalı ağ,
Alnı qırış gəldim dünya üzünə.

Çanta götürmədim,
Hardaydı çanta?
Qəzetə bükürdüm kitab-dəftəri.
Bəzən də xırmanda dərz çata-çata
Təkrar eləyirdim keçən dərsləri.

Çörək aparmırdım məktəbə... çörək...
Gözlərin dolmasın – tarix budur, bax,
Kiçik uşaqlardıq – boyu bir çörək,
Fəqət düşünürdük cəbhəni ancaq.

Yarma sayılardı qazanda, bəli,
O da tapılardı dibə çökəndə.
Əsib titrəyərdi anamın əli
Nimçəyə bir qaşıq sıyıq tökəndə.

İçərdim sıyığı, dənsiz durunu,
Yalnız su görərdim qaşığımda mən.
Bəlkə də H_2O düsturunu
Onunçün bilirəm indi əzbərdən!

Fizika sevdiyim fənn idi, fəqət
Ondan iki bildim işıq bəhsini.
İşıqlar sönərdi,
Hər yanda zülmət,
Zülmətdə keçmişəm işıq dərsini.

Oğul,
Budur mənim həyatım, yolum.
Bax, bu dediklərim tarix deyilmi?
Söylə, necə oldu, a dərdin alım,
Bunları bilmədin sən mənim kimi?

Dərsdən kəsilənim,
Bilmirsən məgər
Bunların üstündə ucalmısan sən?
Bunları mənimtək nəql etsən əgər,
Deməli tarixdən beş almısan sən.

1972

POEZİYA

Bir quru adınla könlüm sevindi,
Nə çörək olmusan, nə şöhrət mənə.
Başqa bir peşəni seçsəydim indi
Bəlkə qismət idi var-dövlət mənə.

Həmdəmim olardı bəlkə nəşələr,
Dolmazdı qəlbimə el dərdi-qəmi.
Bu dünya yanğına düşsəydi əgər,
Odu odlamazdı yenə sinəmi.

Fəqət düşünmədim bu "səadəti",
Bir sənə bağladım ürək odumu.
Elə bil qazandım əbədiyyəti
Şair cərgəsində görüb adımı.

Sən mənə nə verdin?
Minnətsiz həyat,
Nəğməli bir dodaq, azad bir ürək.
İstəsən dara çək, alovlara at,
O öz sözlərini yenə deyəcək!

Sən mənə nə verdin?
Cəsarət, hünər.
Özün də bu yolda odları keçdin,
Babam Nəsimiyə, Sabirə məgər
Həmin cəsarəti sən verməmişdin?!

Dözümdə bu yurdun dəmirağacı,
Fəqət zəriflikdə qızıl laləsən.
Həqiqətə – ana, mərdliyə – bacı,
Mənim gözlərimdə, şerim, beləsən.

Mənimçün biçinçi dəryazı kimi,
Mənimçün dəmirçi gürzü kimisən.
Vətənin torpağı, səması kimi,
Ata ocağının gözü kimisən.

Doğrusu, bilmirəm,
Özümə də mən
Dönüklük etmişəm həyatda bəlkə,
Sənin şərəfinə, fəqət, qətiyyən
Şerim,
Vurmamışam kiçik bir ləkə.

Bəlkə buna görə ağır günümdə
Oğlumdan, qızımdan, dostumdan əvvəl
Sən ümid rəmzitək durdun önümdə,
Etibar rəmzitək mənə verdin əl?!

Bəzən sellər kimi hey köpürdən də,
Bəzən bulaq kimi quruyan da sən.
Mənə hamıdan çox qəzəb verən də.
Məni hamıdan çox qoruyan da sən.

Uzaq dağ kəndinə, aran kəndinə
Apardın adımı qanadlı quştək,
Bağlı qapıları sən açdın mənə,
Gözümə nur verdin, əlimə çiçək.

Vətən sərhədini bu vaxta qədər
Keçib yad bir elə getmədim,
ancaq
Üzümü görməyən uzaq ölkələr
Səni tanıdılar özümdən qabaq.

Sən nəsən mənimçün?
Vətən, su, torpaq,
Nə qədər sən varsan, demək varam mən.
Şerim,
ona görə hamıdan qabaq
Sənə minnətdaram, minnətdaram mən!

1974

FƏXRİ XİYABAN

Qalxıram yuxarı... Fəxri xiyaban,
Cərgəylə düzülmüş məzar daşları!
Əlimdə papağım, köksümdə həyacan
Anıram hörmətlə vətəndaşları.

Baxıram... Zərdüştün qəbridir sanki
Qarşımda görünən birinci məzar.
Mənə elə gəlir, dostum, inan ki,
Burdadır Nizami, Babək, Bəxtiyar.

O böyük Füzuli İraqda deyil,
Burda dəfn olunub – bu xiyabanda.
Mehdi Adriada – uzaqda deyil,
Burda dəfn olunub – bu xiyabanda.

Burda dəfn olunub mənim eşqimi,
Mənim torpağımı düşünən hər kəs.
Onların nəfəsi, söylə, deyilmi
Mənim sinəmdəki bu odlu nəfəs?!

İstər yüz qərinə keçsin o gündən,
Ya burda, ya da ki, başqa məkanda,
Vətən torpağıyçün bir vaxt can verən
Burdadır, burdadır – bu xiyabanda!

1959

MƏNİM ATAM

Hələ gəncliyindən alnı qırışdı,
Saçını ağarmış tellər bəzərdi.
İstili-bürkülü, qarlı-yağışlı
Muğan çöllərini atlı gəzərdi.

Şalvarı qalife, çəkməsi dizdən,
Günlüyü bir qarış papağı vardı.
Komissar boyunlu köynəyin üstən
Dörd barmaq enində qayış vurardı.

"Yeni yol", "Kommunist", "Bakı fəhləsi"
Daim ağarardı yəhər qaşında.
Görəndə kiçicik söyüd kölgəsi
Açıb oxuyardı bir arx başında.

Cibinə qoyduğu bir parça çörək
Bəzən quruyardı,

Yaddan çıxardı,
Yemlik, quşəppəyi, yarpız, göbələk –
Muğanın min dadlı neməti vardı.

Şamda eləyəndi o, naharını,
Süfrəsi göy çəmən, yoncalı düzən.
Bizi – çox sevdiyi övladlarını
Həftədə bir dəfə görmürdü bəzən.

Gecələr evə də gəlmirdi çox vaxt,
Çöldə gözləriylə ulduz sayırdı.
Taxılı, pambığı azğın qolçomaq
O vaxt odlayırdı, dəryazlayırdı.

Yanan torpaqlardan kəsirdi suyu,
Doymuş torpaqlara su buraxırdı.
Yasa çevrilirdi bəzən el toyu,
Dava da düşürdü, qan da axırdı.

İlxıya, naxıra, başsız sürüyə
Bir gündə qəfildən qırğın düşərdi.
Toxum səpilməmiş hələ sahəyə
Ziyankar əlilə evdə bişərdi.

Muğanda ilk kolxoz yaradan atam
Ona ilk sədr idi.
Biçib-əkirdi.
Yeməyi, içməyi unudub tamam,
Kolxoza əsgərtək keşik çəkərdi.

Evə gec gələrdi.
Anam cavandı,
Qısqanclıq, şübhələr onu üzərdi.
Görərdin söz-söhbət yenə uzandı,
Ər-arvad söhbəti...
Atam dözərdi.

Bir həkim baxardı üç para kəndə,
"Məxsus-müalicə" qalsın bir yana.
Cavan kolxoz sədri xəstələnəndə
Çöllərin havası dərmandı ona.

Onda elə idi.
İstirahəti
Köhnə qvardiya işdə görürdü.
Nə eyib sanırdı onlar zəhməti,
Nə də ki, salamı rüşvət verirdi.

Nə soyuq bilirdi atam, nə isti,
Nə də hay-küy salıb yaxa cırırdı.
"Lenin firqəsinin bir kommunisti" –
Özünü o belə adlandırırdı.

...İllər gəlib keçdi qaralı-ağlı,
Kəndimiz böyüdü, kolxoz boy atdı.
Atamın – gənc sədrin adıyla bağlı,
Nə varsa –
Elimiz sevdi, yaşatdı.

Bir inək beş oldu, bir qoyunsa yüz,
Bir sünbül dəstərxan dolusu oldu.
Muğan – o, su deyib haray salan düz
Buluddan su aldı, Kürdən su aldı.
Yolum o yerlərə düşübdür yenə,
Kürün sahilində gəlib dayandım.
Hər ləpə bir tarix danışdı mənə,
Nədənsə ilk dəfə atamı andım.

Şalvarı qalife, çəkməsi dizdən,
Günlüyü bir qarış papağı vardı.
Komissar boyunlu köynəyin üstən
Dörd barmaq enində qayış vurardı...

1960

ANA NAĞILLARI

Gözümdən yuxumu qovaraq hər gün
Nağıl danışardı anam mənimçün.
Şaxta qovuranda, şaxta kəsəndə,
Çovğun püskürəndə, yellər əsəndə,
Dərələr, təpələr batanda qara,
Evimiz dönəndə soyuq məzara,
Anam söyləyərdi:
– Dağlar dalında
Günəş qonaq qalıb yay mahalında.
Bir gün də bizlərə o gələcəkdir,
Sırsıra əriyib töküləcəkdir.
Mənim qaladığım təndir sayağı
Günəş isidəcək daşı-torpağı...

Ana sözlərində nə qüvvə vardı –
Onun nağılından canım qızardı.

Hər şeyə inanır uşaq ağılı,
Anamın ən şirin, gözəl nağılı
Bolluqdan olardı,
Xoş güzərandan...
Hər şey başdan aşan uzaq məkandan.
Anam sadalardı dövləti, varı –
Bizim evimizdə olmayanları:
Tutub yer üzünü meyvə bağları,
Ətri bihuş edən qovun tağları,
Qapılar qoyunlu, sağmal inəkli,
Dəstərxan çörəkli, süfrə çörəkli.
Axırda deyərdi:
Bir gün bizim də...
Ümid alışardı ana üzündə,
Ana sözlərində nə qüvvə vardı –
Onun nağılından qarnım doyardı.

İndi böyümüşəm.
Dəyişib aləm,
İstili-soyuqlu günlər görürəm.

Şaxtaya, çovğuna düşürəm bəzən,
Bəzən ehtiyacda ömr edirəm mən.
Nağıl danışanlar olur arabir, –
Nağılda qış gedir, ilk bahar gəlir,
Nağılda dəyişir güzəran, həyat –
Bunlar ürəyimi qızdırmır heyhat!
Heyhat... Qarnımı da doydurmur bunlar!
Görünür hər yaşın öz aləmi var.
Ya mənim qəlbimdə dəyişib inam –
Hər şirin nağıla inanmayıram,
Ya da ki, cənnətdən desə də bir kəs
Ana nağılının yerini verməz!..

1966

***

Bir qəzet parçasına bükülübdür naharım,
Çörək, arasında yağ...
Gərək işə aparım.

Qəzetdəki yazıya birdən sataşır gözüm:
Hardasa aclıqdı bərk
Fəqət insanlar dözür.

Qəzet yazır aclıqdır, çörək tapılmır... Ancaq
Özünə bükülübdür naharım:
Çörəklə yağ.

Düşünmədən, duymadan bu aclığı, möhnəti
Yeyəcəyəm çörəyi,
Atacağam qəzeti...

Deyirəm, laqeydlik olmasaydı bu qədər
Nə səfillər qalardı,
Nə aclar, dilənçilər.

1962

BÜLBÜL SƏSİ

Səhər açılırdı...
Bir bülbül səsi
Qəfildən oyatdı məni yuxudan,
Üfüqün ləkəsiz təmiz çöhrəsi,
Bir də sübh yeliydi onu oxudan.

Hava da təmizdi –
Xəbis nadanlar
Görünür yuxudan oyanmamışdı.
Sular da təmizdi –
Namərd adamlar
Hələlik sahildə dayanmamışdı.

Yolların tozunu yatırmışdı şeh,
Orda görünmürdü oyri ayaqlar.
Laləli cığırlar bir qövsi-qüzeh,
Təmizdi, aydındı sakit uzaqlar.

Qalxıb durmamışdı yuxudan hələ
Nə yalan, nə saxta, nə pis, nə riya.
Bülbül cəh-cəh vurub gəlirdi dilə,
Ötürdü saflığı o, duya-duya.

Nə qədər gözəldi bülbülün səsi!
Büllur təmizlikdi onu oxudan.
Xoşbəxtəm,
Təmizlik, saflıq nəğməsi
Bu səhər oyatdı məni yuxudan.

1964

BİZİM YERLƏR

Gəl Kür sahilində oturaq qoşa,
Bulanıq sulara edək tamaşa.
Burdadır şahmayı, qızılbalıqlar,
Balıq kababının öz ləzzəti var.
Gəl otlar üstündə bardaş quraq biz.

Vurğuntək gəl burda turac vuraq biz.
Ceyrana dəyməyək – bala üstədir,
Ovçusu gedəli o da xəstədir.
Günorta yerinə qalxan zaman gün
Oturaq altında salxım söyüdün.
Öpsün alnımızı ətirli yellər.
Gəl, gəl, hər qapını ürəklə açaq,
Əzəldən bu yerdə əzizdir qonaq,
Bizdən əsirgəməz kimsə varını.
Hərə öz bağının ilk nübarını
Gətirər süfrəyə açıq ürəklə.
Kimi aş, kimi də pendir-çörəklə
Səni qonaq saxlar, əziz, mehriban,
Burda sıxılmazsan, şəhərli oğlan!
Sən girsən hər evə öz evin kimi
Açsan ürəyini əgər səmimi –
Hamı sevər səni öz oğlu qədər,
Ayırır namərdi, mərdi bu yerlər.

Dostum, sən yaxşı bax, bura Muğandır,
Büzmə dodağını ona, amandır!
Düşünmə burada hər vaxt yaz olur,
Qışda palçıq olur, yayda toz olur.
Dostum, olmasa da Muğan kurorttək
Onu mənim kimi sevəsən gərək!
Onun tikanı da, onun gülü də,
Şoran torpağı da, tər sünbülü də
Ana südü kimi bizə əzizdir.
Yurdun hər parçası – ürəyimizdir.
Gözəl adətləri bu vaxta qədər
Qoynunda bəsləyən yerdi bu yerlər!

***

Keçdiyin yerlərdən keçib Kür çayı,
Öpəydim öpdüyün sahilləri mən.
Sinəmə arabir yarpaq düşəydi
O yaşıl hörüklü söyüdlərindən.

Keçdiyin yerlərdən keçib Kür çayı,
Baxaydım o əziz, doğma yerlərə.
Mənim də gözümdə əks eləyəydi
Qoynunda əks edən hər bir mənzərə.

Keçdiyin yerlərdən mən dinləyəydim
Xallı turacları, torağayları.
O təzə dənizdə* mən bəsləyəydim
Pullu xəşəmləri, ağ şahmayları.

Keçdiyin yerlərdən keçib Kür çayı,
Nəğmələr deyəydim mən bütün günü;
O vaxt anlayardım, o vaxt duyardım
Əsl səadətin böyüklüyünü!

MUĞANIN QIŞI

Təkcə dəniz deyil göyü əks edən,
Sən bu gün Muğana sal güzarını.
Dayanıb seyr elə təpə üstündən
Yerin ala-tala bəyaz qarını,
Göyün ala-tala ağ buludunu.
Deyərsən:
– Göylərmi əks edir yeri?
Yoxsa yer əks edir mavi göyləri?

Səhra elə bil ki, qara sətindir
Üstünə nəçə ağ yamaq düşübdür.
Göy onun əksidir,
Öz surətidir,
Fəqət məsafəsi uzaq düşübdür!

Gün vuran güneydə əriyibdi qar,
Gündüşməz quzeylər yenə də ağdır.
(Güney də, quzey də dağlarda olar.
Yox, bura Muğandır,
Dağdan uzaqdır).

* Mingəçeir dənizinə işarədir.

O yatır yorulmuş qəhrəman kimi,
Güc, qüvvət toplayır gələn bahara.
Bir azdan qalxaraq oyanan kimi
Yaşıl rəng vuracaq bu torpaqlara.

Yatır, laylasını turaclar deyir,
Ötür torağaylar kədərli səslə.
O çılpaq yamaclar,
Ağaclar deyir:
Yetər qış yuxusu,
Muğanı səslə!
Onsuz darıxırıq,
Oyansın gərək,
Zümrüd yoncalıqlar qoy cilvələnsin.
Zəmilər telini darasın gərək,
Muğan günəşinin nuru ələnsin.

Qış donu bəyazdır,
Soyuqdur fəqət.
Üşüyər Muğanım, dəyişin onu.
Muğana başqa don verib təbiət,
Tez olun,
Geydirin o bəyaz donu!

Sizin səsinizə səs verirəm mən
Turaclar, yamaclar, yollar, cığırlar.
İndi mən danışım Kürün dilindən,
Buna Kür çayından vəkalətim var.

O axır,
Sahili süzərək keçir,
Axır,
Yazdakıtək kükrəmir ancaq.
Elə bil Muğandan küsərək keçir: –
Niyə yuxudadır anam – bu torpaq?

Tarlalı, zəmili bizim çölləri
Nəğməsiz gördüyüm bir an olmayıb.
Mən Kürəm, Muğanın təbiətini
Hələ mənim kimi duyan olmayıb.

O durna qatarlı qızları hanı?
Şirin söhbətləri, sözləri hanı?
Dönməz igidlərin özləri hanı?
Yox, Muğan bu sayaq Muğan olmayıb!

Oyansın, sularım axmasın hədər,
Açılsın kanallar, bəndlər-bərələr.
Gözəllər yuxuda qalmaz bu qədər,
Məgər vaxt çatmayıb, zaman olmayıb? –
Deyib Kür çırpınır öz məcrasında,
Balaca arxlara axmaq istəyir.
Mərzlər arasından,
Yol arasından
Uzanan çöllərə baxmaq istəyir.

Kür yaman darıxır,
Axı tanışdır
Naxırlı-sürülü bu yerlər ona.
Kürsüz Muğanımın yazı da qışdır,
Odur ki, ana Kür deyirlər ona.

Muğansa uyuyur,
Bu çağırışdan,
Bu sözdən-söhbətdən bixəbər kimi.
O yeni qüvvətlə çıxacaq qışdan
Yatıb yorğun almış igidlər kimi.

Hələlik Kür sakit,
Turac pərişan.
O boz torağay da qəmli oxuyur.
Yox, onlar bilmir ki, yuxuda Muğan
Məhsul bayramına süfrə toxuyur!

ŞAİR TALEYİ

Taleyin hökmünü bilməlisən sən...
Hamının qəlbindən özün halısan.
Hamının yerinə gülməlisən sən,
Hamının yerinə ağlamalısan!

Bütövlük

SÖHRAB VƏ TAHİRƏ

I

Sənin o tufanlı yolların üstə
Baharam, çiçəyəm, qızılgüləm mən.
Düzdür, bölünməkdən qorxuram ancaq
Sevinci sənինlə gərək böləm mən.

Bir vüsal istədin, keçdi qərinə,
Həsrəti mən çəkdim sənin yerinə.
Dostuna dostamsa, düşmənlərinə –
Qılıncı sıyrılmış vuran ələm mən.

Hıcranı nə qədər qucaqlayasan,
Atəşi gözünlə ayaqlayasan?
Mümkünmü içində sən ağlayasan,
Nəşələr qoynunda deyib-güləm mən?

Kor tale bizimlə oyun oynadı,
Bizi bitməz işə salıb sınadı.
Ürəyim amansız divanxanadı –
Taleyin yerini kaş ki, biləm mən!

Ağlayır ürək də, beyin də, baş da,
Dönməz bu həsrətə torpaq da, daş da,
Namərdəm yüz yaşda, yüz əlli yaşda
Vüsalı görməsəm əgər, öləm mən!

1974

II

Uca dağlar, yol verin
Uzaqdan ana gəlir.
Ovxarlı xəncərini
Çəkib hicrana, gəlir.

Daşa dönmüş ümidlər,
Duyğular cana gəlir.
Yola çıxın, igidlər,
Uzaqdan ana gəlir.

Bir nəfərin anası,
Milyonların istəyi,
Bir oğul təmənnası,
Bir torpağın diləyi.

Uzaq düşmüş yaxından
Çıxıb bu yana gəlir.
Ay Bakı, ay Naxçıvan,
Yola çıx, ana gəlir.

Ay Qarabağ, Muğan, Mil
Yola, izə çiçək sər,
Vüqarlı Qoşqar, əyil,
Ana gəlir, ay ellər!

Şair oğlu demişkən
Gözündə qətrə gəlir.
Saçındakı gümüşdən
O yerin ətri gəlir.

Sözündə, ləhcəsində
O yerin duzu gəlir.
Ananın nəfəsində
O yerin özü gəlir.

Daşa dönmüş ümidlər,
Arzular cana gəlir.
Yola çıxın, igidlər,
Uzaqdan ana gəlir!

1971

III

İsti qoynu intəhasız Vətənin,
Ağ saçları bəyaz qarın təşbehi.
Şerindəki ahəng idi o sənin,
Nəfəsinə söyləyirdin yaz mehi.

Məclislərdə ümiddən söz salana
"Mən bir ana gözləyirəm" – deyərdin.
"Ən işıqlı ümidimdir o ana,
yana-yana gözləyirəm" – deyərdin.

Astanaya qəfil kölgə düşəndə
Səksənərdin: – Kaş ki anam gələydi!
Köynəyinə nardan ləkə düşəndə
Söyləyərdin: – Kaş ki anam siləydi!

Saf büllura gözlərindən axan yaş,
Musiqiyə ana səsi deyərdin.
Sən anana anadan çox, a qardaş,
Təşbehlərin xəzinəsi deyərdin.

Şair dostum, gözlərimi göynədir,
Bir xəbər ki, axır çatdı sənə də.
Ana öldü!..

Bu yer nədir, göy nədir,
Hər şerində görünəcək yenə də:

Ağ saçları bəyaz qarın təşbehi,
Gül nəfəsi ilk baharın təşbehi,
Özü nurlu arzuların təşbehi,
Adı sonsuz etibarın təşbehi.

Andı, polad qalaları aldıran,
Bayrağını üfüq boyu qaldıran
Bir inamın, bir vüqarın təşbehi.

1973-74

NARBƏND AĞACI

Məmməd Araza

Bir ağac görmüşəm Naxçıvanda mən,
Çətrinin altına sığar bir aləm.
Vətən bağlarından, meşələrindən
Keçmişəm – narbəndə rast gəlməmişəm.

Uzaqdan deyərsən zümrüd barı var,
Zümrüd parçasıdır hər bir yarpağı.
Lakin nə üstündə qızıl narı var,
Nə bənd-bənd göyərir qarğısayağı.

Bəs niyə adını qoyublar narbənd?
Deyirlər kəsilir nəsli ilbəil.
Nə calaq götürür, nə də ki, peyvənd,
O nə toxum verir, nə də bir şitil.

Payız küləyilə, qış sazağıyla,
Yay da günəşiylə onu qovurur.
Narbəndsə zümrüdü qol-budağıyla
Baharı yaşadıb yamyaşıl durur.

Elə bil çəkiblər zümrüd suyuna,
Görənlər ya küknar, ya şamdır deyir.
Onun çətirinə, onun boynuna
Uzaqdan baxanlar ehramdır deyir.

Kimsədən istəmir bircə qətrə su,
Kimsə gövdəsinə çəkməyib tumar.
Yay od ələyəndə, sinə dolusu
Altında sərinlik udub yolçular.

Şaxta qovuranda, leysan yağanda
Sığınıb çətrinə bir bölük adam.
Palıd parçalayan şimşək çaxanda
İnsana ev olub, mal-qaraya dam.

Kimsəyə fərq qoymur – gəldi-gedərdi –
Buraxır hamını öz kölgəsinə.
Yamyaşıl çətri də sanki sipərdi,
Borana, tufana hey gərir sinə.

Fəqət zaman keçir – azalır narbənd,
Deyirlər kəsilir nəsli ilbəil.
Nə calaq götürür, nə də ki, peyvənd,
O nə toxum verir, nə də bir şitil.

Zirvəsi buludda, kökləri yerdə,
Dayanıb müdrik bir ağsaqqal kimi.
Bəlkə çıxmayacaq sabaha bir də,
İtəcək yamyaşıl bir xəyal kimi.

O, bunu düşünmür, düşünmür əsla,
Sanki unudubdur öz həyatını.
Yenə də əvvəlki o ehtirasla
Açır gələnlərə qol-qanadını.

Belə gəlib-gedir bizim varlığa,
Döyür dönə-dönə onu külək, qar.
Ən böyük hünərə – fədakarlığa
Zərbi-məsəl edir onu adamlar.

O tənha narbəndi seyr edirəm mən,
Yaddaşda onuntək qalaydıq, ay dost!
Heç nə istəməyən, nəyi var verən
Bir narbənd ağacı olaydıq, ay dost!

1973